# Köçkün şeirlər və ya «Şeir istedadın içindən gəlir»



*İsmayıl KAZIMOV,*
*professor*

Əslən məşhur Cocuq Mərcanlı kəndindən olan Müxəmməd Haqverdinin poetik yaradıcılığına bələd olmadığım üçün öncə tanımadım. Poetik örnəkləri ilə tanış olandan sonra, necə deyərlər, «əlim ağzımda qaldı». Bu frazeoloji ifadə biz tərəflərdə mənfi çalarda işlənir. Amma mən onu şairin şeirlərini oxuya-oxuya həddindən ziyadə çox duyğulandığım üçün işlətdim. Gördüm ki, bu adamın poetik bacarığı, istedadı, poeziyaya münasibəti yetərincədir.

Həmin poetik mətnlər müxtəlif ədəbi-bədi və dil vasitələrilə əhatə olunaraq obyektiv və subyektiv mənaları yüksək səviyyədə təqdim edir, ciddi obrazlılığı, emosionallığı, ekspressivliyi formalaşdıra bilir. Bədii faktlar aydın təzahür olunduğu üçün onun obrazlı nitqində baş qaldırmış keçid mənaları tez qavramaq olur. Ən çox müşahidə olunan əlamət odur ki, bədii, fərdi-müəllif metaforaları dil metaforalarını üstələyir. Sözlər, ifadələr arasında assosiativ əlaqə yaranır. Bu əlaqə, əlbəttə, həyat və dil təcrübəsindən irəli gəlir, «metaforikləşmiş struktur doğulur» :ümidimə dirsəklənə-dirsəklənə ömür yaşayıram üzü bahara. Müxəmməd ümidə bel bağlayır. Həyat onu öyrədir, doğulduğu, boya-başa çatdığı Cocuq Mərcanlı kəndinin yenidən insanları öz ağuşuna alması onu sevindirir. Həyat yaxşıdır, amma ömür tez gedir. Gülmək vaxtı deyil, torpaq dərdi bütün dərdlərdən betərdir. Belə aktual düşüncələr aydın, aşkar, unikal mətləbləri ifadə edir. İdeya inkişafda verilir. Fərqləndirici meyarlar onun təfəkkürünə «sığal çəkir»

Fırlandıqca beynimdən
Yeni şeirlər süzülür
Ürəyimə
Ürəyimdən qələmə,
Qələmdən kağıza
Kağızdan da o üzə.
Fırlan başına dönüm,
Tez
fırlan, gəlim özümə.

Necə duyğulanmayasan? «Bu dərd mənə ağırdır, Bu dərd məni ağrıdır» misralarındakı söz oyununa (ağır-ağrı) görə. Ağır-ağrı sözlərini bir riyaziyatçı müəllim səslərin yerini dəyişməklə (ırrı) möcüzələr yarada bilib. Bu söz oyununun içində şairə əzab-əziyyət verən, ağrıdan, ağır olan dustaq dağlarımızdır, tapdaq məzarlarımızdır, yandırılmış ellərimiz, obalarımızdır, vüqarı sındırılmış oğullarımızdır, namusu şəhid olmuş qızlarımızdır, hələ də qisası alınmamış şəhidlərimizdir. Daha geniş anlamda Qarabağ dərdidir, müsibətidir...

Ədəbiyyat dilə material verir. Dildən əvvəl sözdür. Y.Lotman poetik mətnləri təhlil edərkən çox məsələlərə toxunur və xoşa gələn bir fikri ondan ibarətdir ki, «həyatın, fəaliyyətin mürəkkəbləşən ümumi mənzərəsi söz adamının düşüncəsində dolaşır, «poetik enerji»ni mükəmməlləşdirir» (Bax: Lotman Ö.M. Analiz pogtiçeskoqo teksta. L.: 1972: 18)

Müxəmməd də də bu enerji güclüdür. Təkmil şeirlər onun içində dolaşan düşüncələri harasa çəkib aparır...

Poeziya dili mühüm linqvistik tədqiqat obyektidir. Bu dil linqvistik fenomendir, mühüm yaradıcılıq xüsusiyyətidir. «Poetik dil» «şairin, onun dil və üslubunun uzun müddət qazandığı təcrübədir». Bu təcrübəni Müxəmməd birdən-birə əldə etməmişdir. Ümumi ideya onun düşüncəsində tədricən formalaşmış, yönünü təyin edə bilmişdir. Bu ideya «sirr deyil, hamıya məlumdur» (poeziya dilində buna «tayna» deyirlər)

«Məkanın və zamanın dili» hopub Müxəmmədin sevgi dolu misralarında: Bir yay günündə Nəhəng qara tut ağacının kölgəsində Addımlarımız burun-buruna durdu. Sevinc şimşəyi ilə qırdıq. Bizsiz keçən illərin uzununu. İllər qalağının üstündə şənləndik, Xatirələri çözələyə-çözəliyə. Amma bu dəm Özü də qəflətən Bir kədər soyuğu bizi vurdu. Özü də harda? Çal saqqalda Qaşqa atda, Təpəl quzuda. Bir də sahibi bilinməyən Kəndin kənarında İndi də Uşaqların diyirlədiyi Cırıldayan Bir araba təkərində...

Əlbəttə, Müxəmməd ənənəvi poetik obrazlar yaradır, amma özünəməxsus yaradır. Bu obrazlar dinamikada verilir. İnkişafda gerçəkləşir. Dinamik planda obrazın məzmun və mahiyyəti açılır. Sözün yeni münasibətləri yaranır. Obraz predmet planında güclənir. Beləliklə, ənənəvi poetik obrazlar Müxəmmədin şeirlərində funksionallaşır. Misraların sintaksisi sıxılır, yığcamlaşır, fikir şəbəkəsi, toru isə genişlənir. Estetik gerçəklik «ikinci təsirli vasitələri» işə salır, həyatın içi və çölü meydana çıxır. Bu təsirli vasitələrdən biri olan aktivləşmiş bədii dil və ifadəlilik vasitələri lirik süjeti, obrazlı ovqatı inkişaf etdirir. Yaxşı cəhətdir ki, Müxəmmədin poetik mətnləri özülü, bünövrəsi qoyulmuş nəzm normalarını aydınlaşdırır, ifadə edir. Bu baxımdan Müxəmmədin şeirlərində postmodernis təhətəlşüur yox deyildir. Yığcam situasiyalar, daha genişlənə bilən yeni kontekstlər, mənzərə nümayiş etdirənrəngarəng etüdlər bu fikri təsdiqləyə bilər: Günəş günün sahilində, Qərib çağı, Qürub çağı...Üfüqə boylanan nəhəng, al-qırmızı kürənin Qırmızı təbəssüm ələyən şüaları Boz buludları közərdib, əridəcək. İtirəcək üfüq Sozalacaq işıq...Tünd qara səma sakit-sakit Göyün nur çiçəklərini - Ulduzları bitirəcək. Baxın, ulduzlar «nur çiçəklər»ə bənzədilir, onun əlavəsi kimi kontekstdə daxil olur.

Şeir, poeziya obrazlı düşüncənin, simvollarla fikirləşmə məhsulu kimi meydana çıxır. Müxəmməd də bu əlamət kifayət qədərdir. Əgər bənzətmək mümkünsə, Müxəmmədin poeziyası dünyanın dağ silsiləsini, dağ görüntüsünü xatırladır:

Günəşdən paralanıb Mavi gözəlin-Xəzərin boynunda parıldayan nəhəng, almas boyunbağıdır Bakı gecəsi.

Müxəmməd üçün belə bir dil var, doğma Azərbaycan dilimiz kimi, bu dil varsa, poeziya qaçılmazdır, labüddür: Poeziya onun sevimli dilidir, ana dilidir. O, bu dili musiqi kimi sevir. Onun fikrincə, biz təmiz Azərbaycan dilində təmiz, çox gözəl danışmalıyıq. Görüşəndə: Bir göz qırpımında Ürəyimin hansı küncündəsə Mürgüləyən arzumun həsrəti qəfil, isti baxışlarımızdan Əriyib töküldü Gözlərimiz öpüşdü, Əllərimiz öpüşdü, Sözlərimiz öpüşdü, Çiçəkləndi içimiz, Çiçəkləndi çölümüz. Sevincin kosmik sürətini yaşadıq, Çıxdıq yer kürəsinin cazibəsindən, İndi nə ayaqlarımız altında torpaq var, nə də səmada buludlar. Bir sevinc adlı planetin sakiniyik. Dadlı-dadlı anlar yaşadıq o qanadlı gün Günəşə təəccüblü Yer kürəmizə heyrətli!..

Poeziya sanki odun qığılcımıdır, yağ bu dilin mexanizmdir (Con Apdayk, Amerika yazıçısı 1932-2009) Poeziya musiqi kimi insanlığın universal dilidir.

Müxəmmədin elegiya başlıqlı bir sıra şeirlərindən də, sözün həqiqi mənasında, təsirləndim. Bir kəpənək ömrü yaşamış köçkünlükdə doğulan körpələrin taleyindən, gələcəyindən adam təsirlənməyə bilmir. Biz heç, bəs onların gələcəyi necə olacaq? Görəsən, indiki həyat onların üzünə gülə biləcəkmi?!



Müxəmmədin poetik dili sanki enerji mənbəyidir, ovqat ovqatın dalınca gəlir, aydın, obrazlı, mətni assosiasiya özünəməxsusluğu, əlaqəni gözlənildiyi kimi yarada bilib, sözdən, ifadədən tor, şəbəkə, karkas qurub.

Müxəmmədin poetik məhsulları emotiv, duyğulu, hiss-həyəcanlı mətnlərdir:

Toxunma fikrimə fikrim, fikir axtarır. Bahar fikir, nübar fikir Duymazsan qəfil...beynimdə tər-təzə doğulanlar qırılar, tökülər hərf-hərf, heca-heca, söz-söz...Dincliyim əzilər, üzülər...Düşüncəmin əlləri o fikrin ardınca uzanar, uzanar...Tapa bilməsə, üzər qəlbimi ilahi bir fikrin qəfil ölümü Elə bu an qar alar ilhamın, düşüncənin ilahi barı. Beynimdə oyular o dahi, ilahi fikrin məzarı («Axtarış»).

Dərin fikirlərlə yanaşı, onun şeirlərində şüuraltı kommunikasiya, təhtəlşüur, hələ lazımınca dərk edilməmiş fikir, hələ lazımınca ifadəsini tapmamış şüur mövcuddur. Bu şeirlərin dili həqiqi mənada mənim başa düşdüyüm kimi təhtəlşüur ünsiyyət vasitəsidir. Onlar hipnotik təhlil istəyir. Belə təhlilləri yalnız poeziya təhlilçiləri, məsələn, tənqidçi-ədəbiyyatşünas Qurban Bayramov bacara bilər. Təhtəlşüurda - informasiya tən-dürüstdür, sərrastdır, səlisdir. Müxəmmədin şeirləri necə gəldi fikirləşməyə, düşünməyə imkan vermir, insanı dərindən götür-qoy etməyə vadar edir, bir də bunlar sadəcə olaraq çağırışdır, ruh yüksəkliyi yaradır, mənəviyyatı zənginləşdirir, həmin şeirləri oxuyanda adam nəfəsini dərə bilmir, birnəfəsə oxunur, könülləri oxşayır, hiss olunur ki, bu şair açıqqəlblidir, onda ilhamçı, ruhlandırıcı xüsusiyyətlər çoxdur, ürəyə yatır, səmimiyyət əmələ gətirir,

Onun şeir dilində sinkretik ritual xüsusiyyətlər də güclüdür: mahiyyət, ideya, daxili forma-obraz, vasitə, simvol...

Dil Müxəmmədin əlçatmaq, ünyetməz fikirlərini qoruyub saxlayır, xüsusi nitq formulları ilə təsir imkanlarını artırır. Söz Müxəmməddə mücərrədləşir, məkan və zamanı ifadə etmək üçün orijinal vasitələr axtarır və tapır. Fikir verin, «Kəndimiz» şeirinə.

Düşmən tanklarının, toplarının atəşindən talan kəndim, yanan kəndim...

Poeziya-dil onun estetik funksiyasıdır. Beləliklə, yeni sözün, yeni düşüncənin işığında, gözəllik məngənəsində sıxılan Müxəmməd Haqverdinin şeirlərindən bir qida aldıq, ruhumuz, köhnə dərdimiz təzələndi.

Etüdlər onun düşüncələrinin başlığı seçilir. Bu etüdlərdə dünyaya xitab, haqsızlığa etiraz:

Dünya, hara fırlanırsan?
Haram halvadan ləzzətli,
Pis yaxşıdan hörmətli,
Yalan doğrudan sürətli...
Təzadların səsinə karsan,
Səhvinə korsan.

Nəhayət, qeyd edə bilərik ki, poeziya (bədii nitqin) dilinin xüsusiyyətlərindən biri sözlərin yüksək dərəcədə təqdimidir, bitməz-tükənməz izaholunma potensialıdır. Söz burada incəsənət materialı kimi çıxış edir. Bu şeirlər assosiativ sahədə qərarlaşır, modelləşir, oxucunun koqnitiv fəaliyyətini əks etdirir. Əsas reaksiya poetik mətn-stimul istiqmətində reallaşır. Strategiya sonda tənzimlənir. Məsələn, «Qarabağım» şeirində olduğu kimi:

Düyünə düşüb bəxtin Əzabın artır, ürüyür Səbrim məni, Cəbrim məni Ümidimə doğru sürüyür Gözləyirəm haqq divanını. Xalq divanını, Qarabağım Sapı özümüzdən olan baltalara Əqidəsi lilli Milli böcəklərə Tapılacaqmı göstərən öz yerini Oxuya biləcəyəmmi, Vahid, müstəqil Azərbaycan şeirini Qarabağım?

Obrazlılıq məskəndir bu lakonik təqdim. Bu kimi poetik örnəklərdə obrazlılıq genişlənir, inkişaf edir.

Obrazlı (bədii) təfəkkürün başlıca əlaməti isə -assosiativlikdir. Psixologiyada assosiasiya qabaqcadan təqdim olunan əlaqənin şərtləndirilmiş təcrübəsi kimi təqdim olunur. Bu əlaqənin nəticəsində dərketmə, qavrama ortaya çıxır, kontrast biri digərini təqib edir.

Müxəmmədin şeirlərindəki xoşagəlimlik gerçəkliyin doğru-dürüst verilməsi ilə bağlıdır: «Ötən yarpaqların cəsədləriniAparar küləklər, yağar yağışlar, bir dua oxuyar göylər... Gah bir qayıq kimi Üzər sularda, Gah da çökəklikdə çuxur ağzında Quruyar, çürüyər, ölər yarpaqlar. Torpağa alışar, Torpağa qarışar, Torpağı artırar, Torpaq da bir barmaq Qalxar yuxarı. Çılpaq ağaclar indi Ya şəlalədir, Ya da su buxarı...»

Misralardakı elastikliyə, kontektual yeniliyə diqqət edin. Zəngin poetik arsenal vasitələri etüdləşir, emosional tonallığı təmin edir. Ton tarazlaşır, bərabərləşdir, müvazinələşir, fikri dəqiq ifadə edilir. Əsas, mərkəzi mövzu müasir həyatdır və ideyalar da onun ətrafında toplaşır. Vətənini qəlbən sevən Müxəmməd Haqverdi insan münasibətlərinin hədsiz-hüdudsuz ənginliklərin duyur, duyduqcada yeni-yeni əsərlər yazmağa can atır. Bu yolda şairə uğurlar arzulayıram...

*8 fevral 2020*